AZƏRBAYCAN RESPUBLİKASI
QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Poçt indeksi: AZ 1122
Bakı şəhəri, Tbilisi prospekti-129

Telefon/Faks: 012 431 61 81
E-mail: info@refugees-idps-committee.gov.az

Bizim nömrəyə istinad edin

"08" 07 2017-ci il

№ 02/550

"SINAM" Məhdud Məsuliyyətli
Cəmiyyətin direktoru cənab
Əbülfət Rəhmanova

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində "SERP" proqram təminatına dair**

## RƏY MƏKTUBU

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində SERP proqramı ("Müəssisə resurslarının idarə edilməsi sistemi") uğurla tətbiq edilmişdir. Komitənin bütün kadr və maliyyə-mühasibatlıq işi yeni sistemin tətbiq olunmasından sonra avtomatlaşmış bazada qurulmuş və tam elektron formaya keçirilmişdir.

Sistemin tətbiqi ilə Kadr və Mühasibat uçotu işinin təşkili və idarə edilməsi də operativləşmiş, sənədlər üzrə informasiyaların sistemə daxil edilməsi, həmçinin müxtəlif hesabat formalarının əldə edilməsi, uçotun tam dəqiqliklə aparılması təmin edilmiş, bununla da vaxt itkisinin qarşısı da kifayət qədər alınmışdır.

Tətbiq olunan yeni sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəllısinə, Milli Hesablar planına uyğun qurulmuşdur. Sistemin üstün cəhətlərindən biri də hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin sistemdə operativ şəkildə əks etdirilməsidir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin rəhbərliyinə minnətdarlığımızı bildiririk və sistemdən istifadə edən təşkilat olaraq sizinlə işbirliyimizin uzunmüddətli olmasını arzu edirik.

**Maliyyə-mühasibat və iqtisadiyyat şöbəsinin müdiri:** **T.Şamilzadə**